*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 10 iyul 2019-cu il № 53 (2370) Qiyməti 30 qəpik


## Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Bu gün Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında Azərbaycanın "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmişdir.

Azərbaycanın ən qədim şəhərlərindən olan Şəkinin tarixi hissəsi yüzillər boyu ölkəmizin mədəniyyət mərkəzlərindən biri kimi tanınmışdır. Unikal abidələrlə zəngin Şəki şəhərinin tarixi hissəsinin mühafizəsi və inkişafı daim dövlətin diqqətində saxlanılmışdır.

Son illər Azərbaycanın mədəni irsinin dünya səviyyəsində tanıdılması və qorunması istiqamətində çoxsaylı layihələr həyata keçirilmişdir. Qeyd edilməlidir ki, bu fəaliyyətlər beynəlxalq təşkilatlarla, xüsusən dünya mədəniyyəti, təhsili və elminə məsul olan UNESKO ilə sıx əməkdaşlıq şəraitində gerçəkləşdirilir. Təsadüfi deyil ki, "İçərişəhər, Qız qalası və Şirvanşahlar Saray Kompleksi", "Qobustan Qaya Sənəti Mədəni Landşaftı" UNESKO-nun Ümumdünya İrs Siyahısında, həmçinin xalqımızın qeyri-maddi mədəni irsinin 13 nümunəsi UNESKO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısında yer alır. Bu hadisələr Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə verdiyi töhfənin beynəlxalq miqyasda bir daha etirafıdır.

Əziz həmvətənlər!

Şəkinin tarixi mərkəzində keçmişimizi özündə təcəssüm etdirən Şəki Xan Sarayı, karvansaraylar, məscid və minarələr, qədim körpülər, sənətkarlıq emalatxanaları və yaşayış evləri bu gündən etibarən təkcə xalqımızın deyil, bəşəriyyətin mədəni irsi hesab olunur.

UNESKO tərəfindən "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin Ümumdünya İrsi elan edilməsi münasibətilə bütün Azərbaycan xalqını təbrik edirəm.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 iyul 2019-cu il.

## Azərbaycan Ordusunun nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edirlər

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Ordusunun nümayəndələri Tbilisi şəhərində (Gürcüstan) "Münaqişələrin idarə olunması kursu" və Buxarest şəhərində (Rumıniya) "Avropa İttifaqının Şərq Tərəfdaşlığı proqramının Vahid Təhlükəsizlik və Müdafiə Siyasəti çərçivəsində fövqəladə hallar zamanı yardım kursu"nda iştirak edirlər.

# Əlli ilin tarixi



*Əlli il bundan əvvəl, 1969-cu ilin iyulunda Sovet Azərbaycanında yeni dövrün başlanğıcı olacaq bir hadisə baş verdi. Azərbaycan partiya təşkilatına yeni rəhbər təyin edildi. O dövrün kütləvi informasiya vasitələri Heydər Əlirza oğlu Əliyevin Mərkəzi Komitənin birinci katibi seçilməsi haqqında xəbəri yaymağa başladı. Respublikaya yeni təyin olunan rəhbər uzun illər dövlət təhlükəsizliyi orqanlarında işlədiyindən sıravi vətəndaşlar onu nisbətən az tanıyırdılar. Lakin 1969-cu ilin avqust plenumundakı dövrün kommunist ənənələrinə uyğun gəlməyən qətiyyətli nitqi Azərbaycana yeni təyin olunan rəhbəri bütün cəmiyyətə tanıtdı. Eyni zamanda, dahi rəhbər Heydər Əliyevin ana dilində ilk nitqləri tarixi bir məna kəsb etdi.*

Ulu Öndərin 1969-cu ildə hakimiyyətə gəlişi ilə həyata keçirilən milli kökə qayıdış prosesi, əslində, bu nitqlərin təsiri ilə başladı. İnsanlar Ümummilli Liderimizin gözəl, ifadəli ana dilində etdiyi çıxışlarında, Vətənimizi sürətlə qurub qüdrətli dövlətə çevirmək çağırışlarında müstəqil dövlətimizin doğma sədalarını eşitdilər...

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişi keçmiş ittifaq daxilində geri qalmış respublikanın bir neçə il ərzində hərtərəfli inkişafı və zamana uyğun intibah əlamətləri ilə milli dövlətçilik tariximizə unudulmaz bir gün olaraq yazıldı. Məhz bu tarixdən qüdrətli dövlətin, milli intibahın, sosial tərəqqinin, mənəvi yüksəlişin əsası müəyyənləşdi, ulu öndər Heydər Əliyev Azərbaycan xalqının malik olduğu potensialın, qabiliyyətin, modern təfəkkürün ən bariz nümunəsi kimi təsdiqləndi. Dədə Qorqud nəsihətləri ilə mənəvi yüksəlişə nail olan, Babəkin rəhbərliyi ilə mübarizliyini və irticaya müqavimətini göstərən, Şah İsmayılın səyi ilə güclü və qüdrətli dövlət qurmaq bacarığını təsdiqləyən, Cavad xanın başçılığı ilə istibdada qarşı cəsarət nümayiş etdirən, ordu sərkərdələrindən güc alan Azərbaycan xalqı tarixin son 50 ilini də Ümummilli Liderimizin bizə miras qoyduğu dövlətçilik ənənələrini yaşatmaqla, gələcəyə inamlı addımlarla irəliləyir.

50 il Azərbaycanda sabit dövlət quruluşunun yaranması, xalqın təbii və konstitusion haqlarına sahib çıxması, milli-mənəvi yüksəlişə nail olması, fərdin özünü vətəndaş olaraq dərk etməsi və millət tək mövcudluğuna qədər inkişafı kimi tarixi bir prosesi əhatə edir. Bir sözlə, xalqımız əsrlər boyu qazandığı nailiyyətləri, ali keyfiyyətləri Böyük Rəhbərin dövlət quruculuğunda daha da təkmilləşdirərək, sistem halına salınmasının və millət kimi mövcudluğunun, dövlət qurmaq haqqının ən yüksək səviyyədə nümayiş etdirilməsinin şahidi oldu.

**(Ardı 3-cü səhifədə)**

# Müdafiə naziri Gənc Liderlər Proqramının iştirakçıları ilə görüşüb

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov "Heydər Əliyev siyasi məktəbini öyrənirik" Gənc Liderlər Proqramının iştirakçıları ilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbir iştirakçıları əvvəlcə Hərbi Dəniz Qüvvələrinin bazasında ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, xatirəsini ehtiramla yad ediblər.

Bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, inşa edilən baza HDQ-nin komanda məntəqəsi, qərargah binası, gəmilərin bazalandırılması üçün bütün infrastruktur və kommunikasiya xətləri çəkilib, həmçinin burada xidmət edən hərbi qulluqçu ailələrinin sosial-məişət şəraitinin təmin olunması üçün lazım olan bütün şərait yaradılıb.



Gənc liderlərə hərbi gəmilərin təyinatı, taktiki-texniki xassələri, döyüş qabiliyyəti, hərbi dənizçilərin istifadəsində olan silah-sursatlar, xüsusi istehkam avadanlıqları və vasitələri, sualtı axtarış və müdaxilə üçün istifadə edilən robotlar, gəmidə qəza və yanğın zamanı növbəli şəkildə görülən tədbirlər haqqında geniş məlumat verilib. Eyni zamanda qonaqlar şəxsi heyətin xidməti, sosial-məişət şəraiti ilə yaxından tanış olublar. Gəncləri maraqlandıran suallar hərbi qulluqçular tərəfindən cavablandırılıb.

Sonra tədbir iştirakçıları müasir standartlara cavab verən "N" hərbi hissəsində olublar. Burada gənc liderlərə ordumuzun nümayəndələrinin NATO ilə əməkdaşlığa, beynəlxalq sülhün və təhlükəsizliyin bərqərar olunması prosesinə verdiyi dəyərli töhfələr və sülhməramlı əməliyyatlarda fəal iştirakı barədə məlumat verilib. Qeyd edilib ki, bu gün sülhməramlılarımız Əfqanıstanda NATO-nun həyata keçirdiyi "Qətiyyətli Dəstək" missiyası çərçivəsində mühüm vəzifələr yerinə yetirirlər. Şəxsi heyətimizin nümunəvi xidməti və peşəkarlığı NATO komandanlığı tərəfindən daim yüksək qiymətləndirilir.

Gənc liderlər hərbi hissədə yaradılan xidməti və sosial-məişət şəraiti ilə maraqlanıb, şəxsi heyətlə birgə nahar ediblər.

Sonra "Heydər Əliyev siyasi məktəbini öyrənirik" Gənc Liderlər Proqramının iştirakçılarının Müdafiə naziri general-polkovnik Zakir Həsənovla görüşü keçirilib.

Görüşdə Müdafiə naziri Azərbaycan Ordusunda həyata keçirilən islahatlar, qazanılan nailiyyətlər, məişət və xidmət şəraitinin yaxşılaşdırılması məqsədilə görülən quruculuq işlərindən danışaraq bildirib ki, ordumuz işğal altında olan torpaqlarımızın azad edilməsi uğrunda Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən verilən hər bir əmri yerinə yetirməyə hazırdır və qadirdir.

Gənc liderlər çıxış edərək Vətənimizin daha da qüdrətlənməsi naminə onların qarşısında duran vəzifələrin məsuliyyətini dərindən dərk etdiklərini, bu yolda əllərindən gələni əsirgəməyəcəklərini vurğulayaraq, görüşün yüksək səviyyədə təşkilinə görə Müdafiə nazirinə minnətdarlıqlarını bildiriblər. İştirakçıları maraqlandıran suallar general-polkovnik Zakir Həsənov tərəfindən cavablandırılıb.

Sonda xatirə şəkli çəkdirilib.

# Müdafiə naziri HDQ-nin yeni inşa edilmiş infrastruktur obyektinin açılışında iştirak edib



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Hərbi Dəniz Qüvvələrinin (HDQ) şəxsi heyətinin döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi və sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər davam etdirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti HDQ-nin hərbi hissələrindən birində yeni inşa edilən infrastruktur obyektinin açılışında iştirak edib və burada yaradılan şəraitlə tanış olub.

Müdafiə naziri qərargah, matros yataqxanaları, tibb məntəqəsi, digər xidməti və inzibati otaqlara, eləcə də ərazidəki qurğu və avadanlıqlara baxış keçirib.

Məruzə olunub ki, yaradılan şərait şəxsi heyətin hərbi hissə qarşısında qoyulan vəzifə və tapşırıqları daha keyfiyyətli və effektiv icra etməsinə imkan yaradacaq.



# Bakı Qarnizonunda nizam-intizamın vəziyyəti təhlil edilib

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 2019-cu ilin 2-ci rübünün yekunlarına dair Bakı Qarnizonunda döyüş hazırlığının və hərbi nizam-intizamın vəziyyətinin təhlilinə dair müşavirə keçirilib. Tədbirdə qarnizonda yerləşən hərbi hissələrin komandirləri, xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin rəhbərləri və digər vəzifəli şəxslər iştirak ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, müşavirədə Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev cari ilin 2-ci rübü ərzində qarnizon ərazisində görülən işlər, əldə olunmuş uğurlar barədə çıxış edib və qarnizonda döyüş hazırlığının, hərbi nizam-intizamın yüksəldilməsi, eləcə də növbəti tədris dövrünə hazırlıq prosesinin lazımi səviyyədə təşkil olunması ilə əlaqədar müvafiq tapşırıqları vəzifəli şəxslərin diqqətinə çatdırıb.

Müdafiə nazirinin müavini şəxsi heyətin nizam-intizamının möhkəmləndirilməsi, yanğın təhlükəsizliyinin və yanğına qarşı tədbirlərin yerinə yetirilməsinin təmin olunmasına nəzarətin gücləndirilməsi, eləcə də keçirilən praktiki dərs və təlimlər zamanı şəxsi heyətin təhlükəsizlik qaydalarına ciddi riayət olunması, sürücü heyətin peşəkarlığının artırılması və yol hərəkəti qaydalarına əməl edilməsi məqsədilə vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyub.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Hərbi hissədə bədbəxt hadisə baş verib

İyulun 6-da səhər saatlarında hərbi hissələrdən birində bədbəxt hadisə baş verib.

Tank mərmisinin atımının hərbi qulluqçunun əlindən yerə düşməsi nəticəsində partlayış olub.

Nəticədə iki hərbi qulluqçu - gizir Ağalarov Amiddin Şahmalı oğlu və kiçik çavuş Salahov Samir Çingiz oğlu həlak olub.

Müdafiə Nazirliyinin rəhbərliyi həlak olanların yaxınları və əzizlərinə dərin hüznlə başsağlığı verir, səbr diləyir.

Hadisə nəticəsində gizir Məmmədov Nurlan Rəhim oğlu ağır yaralanıb.

Faktla bağlı araşdırma aparılır.

***7 iyul 2019-cu il.***

Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub. Cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.

***8 iyul 2019-cu il.***

Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub. Cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.

***9 iyul 2019-cu il.***

Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub. Cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.

# Əlli ilin tarixi



(Əvvəli 1-ci səhifədə)

Bəli, budur, o dahi şəxsiyyətin müstəqilliyini əbədi, dönməz etdiyi dövlət! Budur, bütün bəşəri dəyərləri özündə əks etdirən, ən ali ənənələri yaşadan və modern yeniliklərə qovuşan, yeni dünya düzənində əhəmiyyətli yer tutan müstəqil Azərbaycanımız!

Milli ideologiyaya söykənən Ümummilli Liderimizin böyük uzaqgörənliklə həyata keçirdiyi inkişaf strategiyasında hərbi quruculuq məsələlərinin həllinə artıq ötən əsrin 70-ci illərinin əvvəllərindən başlanmışdı. Sovet dönəminin sərt rejiminə dəmir iradəsi, qeyri-adi müdrikliyi ilə qalib gələn Ulu Öndər Kremlin milli hərbi kadrlara inamsızlıq siyasətinin əksinə olaraq, azərbaycanlıların hərbi peşələrə kütləvi şəkildə yiyələnməsi, zabit kimi yetişməsi üçün tarixi addımlarını atdı. Azərbaycanda analoqu olmayan hərbi məktəbin yaradılması barədə qərar verdi. Hərbi məktəb 1937-1938-ci illərdə qırmızı terrorun qurbanı olan Azərbaycan xalqının sərkərdə oğlu Cəmşid Naxçıvanskinin adına əbədiləşdirildi. Bu hərbi təhsil ocağı 1991-ci ildə ağır və çətin bir şəraitdə Qarabağ müharibəsinin başladığı dönəmlərdə müstəqilliyini bərpa edən Azərbaycanın ordu quruculuğunda baza rolunu oynadı. Məktəb uzaqgörən dahi rəhbərin ən böyük monumental hərbi abidəsi kimi tarixləşdi. Onu da qeyd etmək lazımdır ki, Ulu Öndər respublikaya rəhbərliyinin ilk illərində SSRİ-nin Azərbaycanda yerləşən hərbi təhsil müəssisələrində olur və orada azərbaycanlıların çox az sayda təhsil aldığını görürdü. Bildiyimiz kimi, o zaman respublikada Bakı Ali Ümumqoşun Komandirlər Məktəbi və Xəzər Ali Hərbi Dənizçilik Məktəbi fəaliyyət göstərirdi. Respublika rəhbəri bu məktəblərin buraxılış mərasimlərində iştirak edir, diplom və zabitlərin rütbələrini məzunlara şəxsən təqdim edirdi.

Azərbaycanın müasir ordu quruculuğunda önəm kəsb edən hərbi təhsil məsələsi Ulu Öndərin respublikamıza rəhbərliyinin birinci dövründə uğurla həyata keçirilmişdi. Respublikada orta və ali hərbi təhsilin vahid sistemi məhz o dönəmdə yaradılmışdı. C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının kursantları ilə görüşü zamanı Ulu Öndər həmin illəri belə xatırlayırdı: "Gənclərimizi hərbi peşəyə cəlb etmək, hərbi



işə alışdırmaq üçün Azərbaycanda hələ 30 il bundan qabaq, bütün xalqlar üçün, bütün Sovet İttifaqı üçün vahid ordu olan bir zamanda, İkinci Dünya müharibəsindən sonra yaradılmış Cəmşid Naxçıvanski adına Hərbi Liseyə bənzər Suvorov, Naximov məktəbləri olan bir vaxtda yerli uşaqlar üçün xüsusi hərbiləşdirilmiş orta məktəb yaratmaq qərarına gəldilər. Hər bir gənc Sovet Ordusunun nəhəng SSRİ ərazisində yerləşən müxtəlif hərbi məktəblərinə daxil olub tam hərbi təhsil ala bilərdi. Bu barədə məndən soruşurdular: bunu nə üçün edirsiniz? Mən qərarımdan dönmək istəmirdim, Azərbaycanda belə hərbiləşdirilmiş məktəbin yaradılmasının vacibliyini sübut etməyə çalışırdım. 30 il bundan əvvəl yaratdığımız hərbiləşdirilmiş orta məktəb, indiki Cəmşid Naxçıvanski adına Hərbi Lisey çox işlər görmüşdür, Azərbaycan milli ordusunun yaradılmasında, zabit kadrlarının hazırlanmasında böyük xidmətləri vardır... Biz bu işi başlayanda, bu bizim üçün nəzəriyyə deyildi, biz böyük gələcəyə baxırdıq. Azərbaycanın gələcəyini düşünürdük. Milli zabit kadrlarının hazırlanması yolunda bu ilk addımlar idi".

Ulu Öndərin siyasi fəaliyyətinin Naxçıvan dövrü, xüsusilə onun Naxçıvan Muxtar Respublikası Ali Məclisinə rəhbərlik etdiyi 1991-1993-cü illər muxtar respublikanın siyasi, sosial-iqtisadi və mədəni inkişafının çətin, eyni zamanda, əlamətdar tarixi mərhələsidir. Ümummilli lider Heydər Əliyev ən əvvəl Naxçıvan Muxtar Respublikasını Ermənistanın silahlı təcavüzü və işğalı təhlükəsindən xilas etdi. Naxçıvan MR-in müdafiəsinin təşkili barədə tarixi qərarlar imzaladı.

Dahi rəhbər Naxçıvanda Ali Məclisin sədri işləyərkən, eyni zamanda, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini seçilir. Keçirilən sessiyalarda fəal iştirak edir. Ulu Öndər Ali Sovetin birinci sessiyasındakı çıxışında Vətənin ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcunu yerinə yetirməyə, müstəqillik uğrunda mübarizəyə qoşulmağa gəldiyini bəyan edirdi. Böyük siyasi xadim Heydər Əliyev dağılmaqda olan Sovet İttifaqında, eləcə də Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti obyektiv təhlil edərək, cəmiyyəti dərindən düşündürən problemlər barədə mühüm ideyalar irəli sürərək, prinsipial və konkret fikirlər söyləyir, təkliflər verirdi. Həmçinin, siyasi və iqtisadi böhranın səbəbləri, onların aradan qaldırılması yolları barədə qətiyyətli mövqeyini bildirirdi.

Ümummilli Liderimizin ikinci dəfə Azərbaycan rəhbərliyinə qayıdışı ilə əsas qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, demokratiya, hüquqi dövlət quruculuğu, milli tərəqqi və dünyəvilik kimi bəşəri dəyərlər təşkil edən eyni bir ideologiyanın əsası qoyuldu. Dövlətin xarici siyasəti, o cümlədən



aparıcı dövlətlər və beynəlxalq təşkilatlarla əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başladı. Ordu vahid komandanlıqdan idarə olundu. Dağınıq dəstələrdən ibarət olan ordu artıq nizami orduya çevrildi. Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindəki təcavüzkar siyasətinin qarşısı alındı, düşmənə əks-zərbələr endirilərək 20-dən artıq yaşayış məntəqələrimiz işğaldan azad olundu. 1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi cəbhə xəttində atəşkəs elan edildi. Bir sözlə,1993-cü ildən etibarən müstəqil dövlət quruculuğunda əldə edilən nailiyyətlər, hərbi, iqtisadi, siyasi, hüquqi sahələrdəki uğurların əsası məhz 1969-cu ildə başlamış missiya ilə qoyuldu.

Bəli, 50 il öncə Azərbaycanda Heydər Əliyev dövrü - inkişaf, milli yüksəliş mərhələsi başladı. Əslində, Ulu Öndərin qurtuluş missiyası məhz 1969-cu ildən başlamışdı. Həmin dövrdə Azərbaycanı gerilikdən, səfalətdən, milli aşınmadan xilas edən dahi rəhbərimiz 1993-cü ildə yenidən xalqının və dövlətinin şərəf salnaməsinə Qurtuluş tarixini yazdı.

Böyük tarixi şəxsiyyət Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə, Kremldə çalışdığı illərdə öz xalqına xidmət etmək nümunəsi və yüksək təşkilatçılıq qabiliyyəti nümayiş etdirərək, respublikamızın sürətli iqtisadi inkişafı istiqamətində mühüm addımlar atdı. Ümummilli Liderimiz tək qüdrətli dövlət qurmaqla kifayətlənmədi, o, həmçinin bu dövlətin gücünün əsrlərlə qorunmasını təmin etdi. Bu gün əsas nailiyyətimiz sayılan ictimai sabitliyin davamlı prosesə çevrilməsi, onilliklər boyu xalqın iqtisadi rifahını təşkil edəcək yeni neft strategiyasının hazırlanması, dövlətin mövcudluğunu şərtləndirən hüquqi, siyasi, qanunverici islahatların daim aparılması və bu kimi digər proseslər Heydər Əliyev siyasi kursunun Azərbaycanın dövlətçilik konsepsiyasına çevrilməsindən xəbər verir. Bununla da Ulu Öndər Azərbaycana xidmət etməyin ən kamil örnəyini nümayiş etdirdi və fəaliyyətinin davamlı konseptual sistemini formalaşdırdı. Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin bütün mərhələlərində xilaskar və qurucu missiyasının nəticəsi kimi ölkənin müstəqilliyi və dövlətçiliyi möhkəmləndi. Dahi rəhbər Vətənə, xalqa, dövlətə şərəflə, yüksək vətənpərvərlik hissiylə xidmət edərək əbədiyaşarlıq qazandı.

Ümummilli lider Heydər Əliyev kamil bir siyasi məktəbin təməlini qoymaqla, mükəmməl dövlətçilik və idarəçilik sistemini yaratdı. Bu gün ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində ulu öndər Heydər Əliyevin daxili və xarici siyasi kursunun həyata keçirilməsində, o cümlədən Azərbaycanın ərazi bütövlüyünü pozmuş erməni işğalçılarının təcavüzkar mövqeyinin beynəlxalq aləmdə ifşa olunmasında mühüm uğurlar qazanılmaqdadır.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Əlahiddə Ümumqoşun Orduda növbəti zabit hazırlığı kursunu bitirən məzunlara rütbə və sertifikatlar təqdim edilib

*Əlahiddə Ümumqoşun Orduda növbəti zabit hazırlığı kursunu bitirən məzunlara rütbə və sertifikatların təqdim edilməsi mərasimi keçirilib.*



Təntənəli mərasimdə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra polkovnik Mehman Gülməmmədov çıxış edərək bildirib ki, kurs zamanı Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzindəki trenajorlardan və silahlanmaya yeni qəbul edilmiş silah və texnikadan maksimum istifadə edilib. Kursa cəlb edilmiş heyətin virtual təlim meydançasında qazandığı yeni biliklər real döyüş şəraitinə yaxın təşkil edilmiş məşğələlərdə daha da təkmilləşdirilib.

Məzun Cəlal Kərimli peşəkarlıqlarının artırılmasına xidmət edən zabit hazırlığı kursunun muxtar respublikamızda təşkil olunmasının hərb işinə verilən yüksək dəyər olduğunu vurğulayaraq dövlətimizə minnətdarlığını bildirib.

Tədbirdə Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev çıxış edərək bildirib ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir və bu məqsədyönlü iş Naxçıvan Muxtar Respublikasında da qətiyyətlə aparılır.

General-leytenant Kərəm Mustafayev çıxışı zamanı ilkin leytenant hərbi rütbəsinin verilməsi həyəcanını yaşayan gənclərə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun tapşırıq və tövsiyələrini çatdıraraq deyib: "Zabit olmaq üçün təkcə hərbi təhsil və fiziki hazırlıq kifayət etmir. Zabit adının məsuliyyəti daha böyükdür. Bu peşəni seçən hər bir gənc, ilk növbədə Vətənini, xalqını, dövlətini sevməlidir. Tarixinə, milli dəyərlərinə, dilinə, adət-ənənələrinə sahib çıxmalı, dünyagörüşünü artırmalı, dövləti və xalqı qarşısındakı xidməti borcunu şərəflə yerinə yetirməlidir."

Sonra kursu daha yüksək qiymətlərlə 1-ci, 2-ci və 3-cü yerdə başa vuran məzunlara sertifikat və hədiyyələr təqdim edilib. Bütün məzunlara sertifikatlar təqdim edildikdən sonra kurs zamanı ümumqoşun, ixtisas və fiziki hazırlıqda fərqlənən məzunlar mükafatlandırılıblar.



Kurs birincisi Şıxəmir Rəşidov xatirə lövhəsinə buraxılış emblemini vurub və məzunlar döyüş bayrağı qarşısında and içiblər.

Sonra polkovnik Vəli Nadirov məzunların ilkin leytenant hərbi rütbəsi verilməklə ixtisaslarına uyğun vəzifələrə təyin olunmaları haqqında Müdafiə nazirinin əmrini şəxsi heyətə çatdırıb.

Tribuna önündən təntənəli keçiddən sonra məzunlarla xatirə şəkli çəkdirilib.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində nəinki əsgərlərin, hətta zabitlərin də tez-tez özünə qəsd etməsi nəticəsində ölməsi artıq adi hal alıb və işğalçı ordunun danılmaz reallığıdır.

Rəsmi Yerevan çox vaxt qarabağlı erməni hərbçilərin ölüm hallarını gizlətsə də, Ermənistanlı hərbçilərin ölümlərini müxtəlif yollarla rəsmi olaraq ictimailəşdirməyə məcbur olur.

İşğalçı ölkənin sosial mediasında gizlədilən özünə qəsd, yaxud özünü öldürmə həddinə çatdırılma faktları haqqında ölən hərbi qulluqçuların yaxınları tərəfindən məlumatlar yayılır. Sosial şəbəkələrdə yer alan xəbərlərdən bəlli olur ki, son bir neçə gün ərzində hərbi xidmətdə üzləşdikləri haqsızlıq, təhqir və təzyiqlər səbəbindən Ermənistan ordusunun 4 hərbçisi özünə qəsd edib.

Kəşfiyyat bölüyünün hərbi qulluqçusu Ardak Lalayan, adı gizlədilən daha iki hərbçi də özünə qəsd edib. Qohumlarının verdiyi xəbərə görə özünü öldürmək istəyən bir zabitin həyatını xilas edə biliblər və o indi hospitaldadır. Onun valideynləri xəsarət alan zabitə lazımi diqqət yetirilməsi müqabilində hadisənin gizli saxlanılmasına razı olublar. Özünü asmaqla həyatına qəsd edən və adı gizlədilən hərb qulluqçu da əslən Qarabağdandır.

Xatırladaq ki, yuxarıda qeyd edilən faktlardan yalnız biri, Ayk Alaverdiyanın təlim mərkəzində özünü öldürməsi xəbəri rəsmi Yerevan tərəfindən ictimailəşdirilib.

Hər 4 faktla bağlı cinayət işi davam edir.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində nizamnamədən kənar münasibətlər zəminində növbəti iki cinayət hadisəsi qeydə alınıb.

İşğalçı ordunun hərbi qulluqçusu Molkon Molkonyan əsgər yoldaşları tərəfindən vəhşicəsinə döyülüb. Müxtəlif dərəcəli bədən xəsarətləri alan M.Molkonyan tibb məntəqəsinə yerləşdirilib. İlkin məlumata görə davaya yerlibazlıq səbəb olub.

Hauptvaxtda dustaq əsgərlər tərəfindən döyülərək müxtəlif bədən xəsarətləri alan daha bir hərbi qulluqçu Vrej Poğosyanın da hospitala yerləşdirildiyi məlum olub.

Hər iki faktla bağlı hərbi polis araşdırma aparır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

*Nümunəvi xidmət*

# "Çingizi tələbəlikdən tanıyırdım"

*"N" hərbi hissəsində keçirilən vətənpərvərlik tədbirlərindən birində fəallığıyla fərqlənən əsgərin kimliyiylə maraqlanmışdım. Öyrənmişdim ki, Cəmil Əliyevdi, Yardımlı rayonunun Aras kəndindəndir. Tay-tuşlarından oxumaq, öyrənmək həvəsiylə fərqlənib. Mühəndis olmağı qərara alıb. Memarlıq və İnşaat Mühəndisləri Universitetinə qəbul olub. 2018-ci il məzunudu.*



Onu da öyrəndim ki, hərbi hissədə nümunəvi əsgər kimi tanınır, nizamnamələrin tələblərinə ciddi əməl edir, məsuliyyətlidir, əmr və tapşırıqları vaxtında yerinə yetirir.

Nümunəvi əsgər hərbi xidmətə qədərki illərindən danışdı:

- Tələbəlik illərində tanıdıqlarımızı heç zaman unutmuruq. Bilmirəm, bu, bəlkə də yaş psixologiyası ilə bağlıdır. İllər keçdikcə hər xatirə könlümüzdə öz məzmununa uyğun yenidən yaşanılır...

Söz sözü çəkdi. Cəmil özündən danışmadı, tələbə olanda tanıdığı bir tələbədən böyük ehtiramla, həsədlə, sevgilərlə söz açdı.

- Məndən iki kurs əvvəl oxuyurdu. Sakit təbiətiylə çoxunun rəğbətini qazanmışdı. Hərdən universitet tədbirlərində görüşürdük, kitabxanada qarşılaşırdıq.

Əsgər Cəmil Əliyev 2016-cı ilin dekabrında qəhrəmanlığıyla düşməni vahimələndirən bir əsgər haqqında - Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanov haqqında danışırdı.

- Çingizlə eyni universitetin məzunu olduğumla qürur duyuram. Bu qürurun həm də Azərbaycan əsgərinin qəhrəmanlığıyla bağlıdı. Çingiz də hərbi xidmətə bu hərbi hissədən başlayıb.

Andiçmə tədbirində eşitdim ki, tələbəlik illərindən tanıdığım Çingiz də bu hərbi hissədə Hərbi and içib. 2017-ci ildə xidmət etdiyi posta Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun adı verildi. Onda atası Salman Qurbanovun dediklərini indi də xatırlayıram: "Çingiz mənim oğlumuydu, indi Azərbaycanın oğludu...". O tədbirdə əsgərlərdən biri demişdi ki, Çingiz söhbətlərində tez-tez Mübariz İbrahimovu xatırlayardı.

Əsgər Cəmil Əliyev deyir ki, hərbi hissəmizdə Çingiz həmişə ehtiramla xatırlanır. Deməli, Çingiz bu hərbi hissədə xidmət edən, xidmət edəcək əsgərlərin hamısının əsgərlik yoldaşıdı...

Çingiz Qurbanov 2016-cı ilin dekabrında vətənsevərlik imtahanı vermişdi. Bu imtahan qəhrəmanlığıydı. Belə qəhrəmanlıq tarix yazır. Çingiz Qurbanovun düşmənlə döyüşü, şəhidliyi, dəfni, Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülməsi universitetimizin müəllimlərinə də, tələbələrinə də müqayisəyəgəlməz qürur yaşatmışdı. Bir daha əmin olduq ki, xalq şairi Səməd Vurğun demişkən:

...Ömrünü vermir bada
El qədrini canından daha
əziz bilənlər...

Çingiz Qurbanov kimi oğullar əbədiyyən yaşayır...

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

Döyüş hazırlığı

# Azərbaycan əsgəri yeni qələbələr qazanacaq

Məlumdur ki, artilleriya döyüşdə hər zaman aparıcı rol oynayıb, döyüşün müqəddaratını həlletmə iqtidarına malik olub. Regionun ən güclü artilleriya silahlarına sahib olan Azərbaycan Ordusunda yeni silahların alınması prosesi bu gün də davam etdirilir. Birmənalıdır ki, müasir silahlardan istifadə edən əsgər də yüksək bilik və bacarığa malik olmalıdır. Göstəricilərin yüksəldilməsi üçün isə hər il Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, hərbi hissə və əlahiddə bölmələrdə döyüş hazırlığı dərsləri keçirilir. Keçirilən dərslər şəxsi heyətin döyüş təcrübəsini artırmaqla yanaşı, onların öz vəzifəsinin öhdəsindən layiqincə gəlməsində yardımçı olur. Şəxsi heyət, həmçinin təşkil olunan təlimlərdə iştirak edərək öz döyüş məharətini təkmilləşdirir və qarşıya qoyulan tapşırıqları operativ şəkildə yerinə yetirir.

Ön xətdə xidmət edən Vətən müdafiəçilərimizlə tanışlığım zamanı bir daha əmin oldum ki, tarixən peşəkar topçuların Vətəni olan Azərbaycanımızın ordu sıralarında bu gün də savadlı və təcrübəli artilleriyaçılar xidmət edirlər. İlk öncə zabit Emin Şərifovla söhbətləşirəm. Zabitin fikrincə, Azərbaycan Ordusunun əsgəri xalqımıza sevinc bəxş edən Horadiz, Aprel və Günnüt qələbələrini təkrarlamaq arzusundadır. "Azərbaycan əsgəri yeni qələbələr əzmindədir. Əminəm ki, ordumuz qısa müddətdə döyüş yolu ilə işğal altında olan torpaqlarımızı geri qaytaracaq. Necə ki, Aprel döyüşləri zamanı ordumuz tarix yazdı, bu gün də həmin qələbəni təkrarlamaq iqtidarındadı. Bu qələbənin qazanılmasında şəxsi heyətimizin döyüş və mənəvi-psixoloji hazırlığı əsas faktora çevrildi. Divizionumuzda Aprel döyüşlərinin iştirakçısı olan zabitlər xidmət edirlər. Həmin zabitlərimiz tərəfindən keçirilən dərslər şəxsi heyətin döyüş vərdişlərinin artırılmasında mühüm rol oynayır. Bundan əlavə praktiki təlimlər təşkil olunur ki, bu təlimlərdə şəxsi heyətin keçirilən dərslərdən mənimsədiyi bilik və bacarıq sınaqdan keçirilir".



Zabit, həmçinin rəhbərliyin orduya göstərdiyi diqqət və qayğıdan da söz açdı. "Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, hərbi qulluqçuların sosial rifahının yaxşılaşdırılmasına yönəlik işlər görülür ki, bu da ordu sıralarında xidmət edən hərbçiləri sevindirməklə yanaşı, onların xidməti məsuliyyətini daha da artırır. Müasir standartlara cavab verən silahların alınması, yeni hərbi hissələrin tikilib istifadəyə verilməsi də ordumuza göstərilən diqqətin təzahürüdür".

Artıq dərs başlamaq üzrədir. Cavabdeh zabit Emin Şərifovla birlikdə şəxsi heyətin dərs keçdiyi məkanda topun ətrafında düzülmüş heyət üzvlərinin dərs rəhbərinin tapşırıqlarını diqqətlə yerinə yetirdiyinin şahidi oluruq. Komandir tərəfindən verilən komandalar normativə uyğun və yüksək dəqiqliklə icra edilirdi. Verilən tapşırıqların bu cür peşəkarlıqla yerinə yetirilməsi keçirilən dərslərin yaxşı mənimsənildiyinin göstəricisidir. Dərs başa çatdıqdan sonra heyət nəfərləri ilə tanış oluram. Kiçik çavuş İlqar Nəsibovun sözlərinə görə, bu gün artilleriya bölmələri qarşıya qoyulan tapşırıqların öhdəsindən uğurla gəlmək bacarığındadır. "Günün nizam qaydasına uyğun olaraq gündüz və gecə vaxtlarında dərslərimiz təşkil olunur. Komandirlərimiz tərəfindən keçirilən dərslər şəxsi heyət tərəfindən dərindən mənimsənilir. Artilleriya haqqında ilkin təsəvvürləri olan kəs yaxşı bilir ki, heyət nəfərlərinin hərəkətləri zəncirvari şəkildə qurulmalı, tapşırıqlar yüksək həssaslıqla və ardıcıllıqla yerinə yetirilməlidir. Təbiidir ki, texnika ağır olduğundan təhlükəsizlik qaydasına da xüsusi önəm verilir. Onu da qeyd edim ki, artilleriya bölmələrimiz öz gücünü Aprel döyüşlərində düşmənə göstərdi. Bu gün xidmət etdiyim batareyada həmin döyüşdə iştirak etmiş komandirlərimiz var. Məhz Aprel qələbəsində pay sahibi olan komandirlərimizin məsləhətləri və bizlərə öyrətdikləri yüzlərlə ensiklopediyadan daha önəmlidir. İstəyirəm ki, torpaqlarımız müharibə yolu ilə azad olunacağı təqdirdə qazanılacaq qələbədə mənim də bir artilleriyaçı olaraq payım olsun".

Digər əsgər Elşən Abbaslı ilə söhbət zamanı öyrəndim ki, onun qohumları zabit Oruc Pənahlı və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Emin Babayev də ön xətdə xidmət edən Vətən müdafiəçilərindəndir. Əsgərlər E.Abbaslı gündəlik fəaliyyətləri ilə bağlı danışdı. "Təsdiq olunmuş plana əsasən sinif və ərazi dərslərimiz təşkil edilir. Döyüş hazırlığı ilə bərabər, fiziki hazırlığımız da daim diqqətdə saxlanılır. Çünki artilleriya peşəsi fiziki cəhətdən hazırlıqlı heyət tələb edir. Bunun üçün də komandirlərimizin rəhbərliyi altında fiziki hazırlığımıza daha çox diqqət yetirilir".

Əslən Laçından olan əsgər Kərim Şahverdiyevə o yerləri görmək qismət olmayıb. O, yurdundan didərgin düşmüş ata-babalarının intiqamını alacağı günü səbirsizliklə gözlədiyini dedi: "Əslən Laçından olsam da, o yerləri görmək mənə qismət olmayıb. Düşünürəm ki, Laçın düşüncələrimdəkindən də gözəldir. Və bu gözəl məkanı işğaldan azad edib, o müqəddəs torpaqlara yenidən ayaq basan Azərbaycan əsgəri olmaq istərdim".

Əsgərlər İlqar Salayev, Mehrac Şahverdiyev, Anar Vasovlar və Elgün Əzimov bu gün düşmənlə üzbəüz mövqedə müqəddəs vəzifəni yerinə yetirməkdən qürur duyduqlarını və torpaqlarımızı işğaldan azad etməyə hər an hazır olduqlarını vurğuladılar.

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

# "Konflikt jurnalistikası məktəbi"nin növbəti auditoriya təlimi keçirildi



*Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə "Dinc Dünya" Araşdırma Mərkəzinin təşkil etdiyi "Konflikt jurnalistikası məktəbi" adlı birgə layihənin Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində növbəti auditoriya təlimi keçirildi.*

Layihə rəhbəri Əlisəfa Mehdiyev çıxışında belə təlimlərin keçirilməsinin mahiyyətinə toxunaraq jurnalistlərin bu istiqamətdə təcrübə toplamasının vacibliyini qeyd etdi. O bildirdi ki, ekstremal şəraitdə jurnalistlərin özünü qoruması və baş verən hadisələr haqqında ilk mənbədən, dolğun və dəqiq informasiyaların alınıb cəmiyyətə çatdırılmasının öyrədilməsi məqsədi daşıyan layihə çərçivəsində keçirilən nəzəri və praktiki təlimlər, ekstremal jurnalistikanın qaydalar bazasının yaradılmasına və cəbhədən xəbərlər yayan jurnalistlərin peşəkarlığının artırılmasına istiqamətlənib.

Çıxışına davam edən layihə rəhbəri jurnalistika peşəsi haqqında ümumi məlumat verərək planlaşdırma, jurnalist araşdırması, planlaşdırmanın növləri, mərhələləri və proseslərindən söz açdı. "Müasir dövrü jurnalistikasız təsəvvür etmək çətindir. Jurnalistlər ictimai həyatın bütün sferalarını əhatə edən informasiyaya, geniş kütləyə təsir etmək, onları maarifləndirmək gücünə malikdir. Bunun üçün isə jurnalist öz sahəsini mükəmməl şəkildə bilməlidir. Jurnalist cəmiyyətin kamilləşməsində, maariflənməsində, ictimai rəyin formalaşmasında misilsiz rol oynayır və bu vəzifələri çox müxtəlif üsullarla gerçəkləşdirir. Jurnalist ölkənin siyası xüsusiyyətlərini və qanunlarını, hüquq normalarını bilməli, araşdırma jurnalistikasının davranış qaydalarına riayət etməli, müxtəlif qurumların nümayəndələri ilə işləməyi bacarmalıdır. Həmçinin hərbi sahədən yazan jurnalistlər hərbçilərin rütbələri, vəzifə səlahiyyətləri, hərbi bölmələrdə nizam-intizam qaydaları haqqında məlumatlı olmalıdırlar."



Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı layihə iştirakçılarını salamlayaraq bölmələrimizdə baş verən hadisələr, keçirilən təlimlər, qoşunların təmas xəttində yaranan gərginlik zamanı məlumatı ictimaiyyətə ilk mənbədən, dəqiq, müvafiq qurumla razılaşdırılmış şəkildə çatdırmağın vacibliyini diqqətə çatdırdı. Bu məqsədlə jurnalistlərin hərbi biliklərinin artırılması və hərbi qulluqçuların KİV-lərlə işləməsi ilə bağlı təlimatın hazırlanaraq hərbi hissələrə göndərildiyini qeyd etdi. Polkovnik Vaqif Dərgahlı vurğuladı ki, Müdafiə Nazirliyinin Mətbuat Xidməti informasiyanın mediaya ötürülməsi üçün zəruri işləri görür, həmçinin jurnalistlərin hərbi hissələrə getməsi üçün şərait yaradır.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun KİV nümayəndələrinin cəbhəboyu zonada fəaliyyətinin tənzimlənməsi haqqında müvafiq əmrini xatırladan polkovnik Vaqif Dərgahlı media nümayəndələrinin hərbi jurnalistikaya meyil etməsinin sevindirici olduğunu bildirdi. "Media cəmiyyətin inkişafı və formalaşmasında, ordu quruculuğunda mühüm rol oynayır. Bu layihə hərbi jurnalistika sahəsinə dair bütün məqamları əhatə edəcək. Lakin jurnalistlər hərbi sahədən yazarkən diqqətli olmalı, peşə və vətəndaşlıq borcuna vicdanla yanaşmalıdırlar. Gənc jurnalistlərin formalaşması və yetişdirilməsi sahəsində Müdafiə Nazirliyinin QHT-lərlə, cəmiyyətlə, müvafiq təşkilatlarla əməkdaşlığı baxımından bu təlimlər böyük əhəmiyyət kəsb edir".

Auditoriya təlimindən sonra təlimalanlar Hərb Tarix Muzeyinə ekskursiya etdilər, xatirə şəkli çəkdirdilər.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**

**1. 1991-1993-cü illərdə Azərbaycan Ordusunun yaranması və formalaşması tarixi.**

**2. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdəki qəhrəmanlıq nümunələri və bu döyüşlərin tarixi əhəmiyyəti.**

**Mövzu:** Dağlıq Qarabağ münaqişəsi, tarixi faktlar, nəticələr. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı aparılan mübarizədə döyüşçülərimizin göstərdikləri qəhrəmanlıq nümunələri.

*Qrup rəhbəri bu mövzunun şərhi zamanı hərbi hissənin döyüş yolu, döyüşlərdə qəhrəmanlıq göstərmiş hərbi qulluqçuları haqqında materiallar toplayıb öyrənməli, dərsin gedişində həmin məlumatlardan istifadə etməyə hazır olmalı, eləcə də dərsin keçirilməsinə hərbi hissədə xidmət edən müharibə iştirakçılarının nümayəndələrini cəlb etməlidir.*

### *1991-1993-cü illərdə Azərbaycan Ordusunun yaranması və formalaşması tarixi*

XX əsrin sonlarında ölkədə siyasi hakimiyyətin böhranlı hala düşməsi və müttəfiq respublikalarda milli-azadlıq hərəkatının genişlənməsi Azərbaycanda Müdafiə Nazirliyinin bərpası üçün real imkanlar açdı. 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının Ali Soveti "Milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında" qərar qəbul etdi. Həmin qərarın əsasında respublika prezidentinin 5 sentyabr 1991-ci il tarixli fərmanına əsasən, Azərbaycanda Müdafiə Nazirliyi təşkil edildi və milli ordunun yaradılmasına başlandı. 1991-ci il oktyabrın 9-da isə Respublika Ali Soveti tərəfindən ordu quruculuğunun hüquqi bazası olan "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" qanun qəbul edildi.

Lakin bir tərəfdən Azərbaycan daxilində hərbi-siyasi vəziyyətin mürəkkəb olması, hakimiyyətdə olan qüvvələrin ordu quruculuğu sahəsində səmərəli siyasət izləyə bilməməsi, bir tərəfdən də ictimai-siyasi hərəkatların ordu daxilində qarışıqlıq yaratmaq cəhdləri, eyni zamanda 6 ay ərzində Müdafiə naziri vəzifəsinə 4 dəfə təyinat aparılması həm Müdafiə Nazirliyinin, həm də Azərbaycan Ordusunun formalaşmasına dağıdıcı təsir göstərdi.

1993-cü ilin ortalarına kimi davam edən belə bir şəraitdə ordu quruculuğu vahid komandanlıq və bir mərkəzdən idarəolunma prinsipindən tamamilə məhrum edilmişdi. Çünki bu dövrdə dövlətə rəhbərlik edənlər öz şəxsi mənafelərinə xidmət edir və fərdi iddialarını həyata keçirirdilər. Elə bir vəziyyət yaranmışdı ki, Azərbaycan Ordusu işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı müharibə aparmalı olduğu halda, daha çox özünü qoruyub saxlamaq uğrunda mübarizə aparırdı. Ordu siyasiləşmiş, hakimiyyət uğrunda mübarizə alətinə çevrilmişdi. Bu səhvlərin nəticəsi tez bir zamanda özünü göstərdi. Şuşa və Laçın işğal edildi, Dağlıq Qarabağla Ermənistan arasında strateji "dəhliz" açıldı və Azərbaycanın neçə-neçə rayonunun sonrakı işğalı üçün zəmin yarandı.

Azərbaycanda Müdafiə Nazirliyinin və ordunun real şəkildə formalaşdırılması ulu öndər Heydər Əliyevin 1993-cü il noyabrın 2-də radio və televiziya ilə xalqa müraciətindən sonra başladı. Müdafiə Nazirliyi qeyri-sağlam qüvvələrdən təmizləndi, orduya yeni qüvvələr cəlb edildi, ordu quruculuğunda köklü dəyişikliklər həyata keçirildi. Nəticədə qısa müddət ərzində ordu yenidən quruldu, təşkilatlandı və Azərbaycanın müstəqilliyinin müdafiəsində dayanmağa qadir olan bir qüvvəyə çevrildi.

Ümummilli lider Heydər Əliyevin ordu quruculuğunun bu mərhələsində apardığı işlərin hərbi-siyasi nəticəsi olaraq ordu daxilində dərinləşməkdə olan böhranın qarşısı alındı və bu sahədə keyfiyyət dəyişikliyi yarandı.

Dövlət Müdafiə Şurasının ilk iclasında cinayətkarlığa, Vətən qarşısında öz müqəddəs borcunu yerinə yetirməkdən boyun qaçıran şəxslərə qarşı barışmaz mübarizə aparılacağının bəyan edilməsi, çağırış və səfərbərlik işinin şəraitin tələblərinə uyğun qurulması, fərarilərə, hərbi xidmətdən yayınanlara qarşı ciddi tədbirlər tətbiq olunması istiqamətində atılan qəti addımlar Azərbaycan Ordusunun döyüş hazırlığının yüksəlməsinə səbəb oldu.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan Ordusuna göstərdiyi diqqət və qayğının nəticəsində vahid komandanlıq prinsipi bərqərar edildi, ordunun maddi-texniki təminatı əvvəlki illərdən fərqli olaraq əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, hərbi hissə və birləşmələrin maddi-texniki, tibbi və digər vasitələrlə təmin edilməsi təşkil olundu, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı. Azərbaycan Ordusuna tələb olunan silah, hərbi texnika, döyüş sursatı, arxa xidmət əmlakı və digər maddi vasitələrin Azərbaycan Respublikasının sənaye müəssisələrində istehsal edilməsi ölkə iqtisadiyyatının inkişafına da təkan verdi. Orduda şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi.

1993-cü il dekabrın 10-da Beyləqan istiqamətində hücuma keçən Ermənistan silahlı qüvvələri ilk dəfə ordumuzun mütəşəkkil müqaviməti ilə qarşılaşdı. Dekabr ayının sonlarında Goranboy, Tərtər və Ağdam istiqamətlərində düşmənin hücumlarının qarşısı alındı, onun xeyli canlı qüvvəsi və texnikası məhv edildi. Füzuli-Beyləqan istiqamətində əks-hücuma keçən qoşunlarımız işğal olunmuş torpaqlarımızın bir hissəsini azad edərək düşmənin bu istiqamətdə yerləşən hərbi qruplaşmasını darmadağın etdilər. Belə bir şəraitdə ermənilər danışıqlar stolu arxasına gələrək 1994-cü il mayın 12-də atəşkəs haqqında sənədə qol çəkməyə məcbur oldular və bununla da Azərbaycan Ordusunun yenidən qurulmasına şərait yarandı.

### *Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdəki qəhrəmanlıq nümunələri və bu döyüşlərin tarixi əhəmiyyəti*

1991-1993-cü ilin ortalarına qədər Azərbaycanın ordu quruculuğunda buraxılan səhvlərə baxmayaraq, 1993-cü ilin dekabr - 1994-cü ilin yanvar-may aylarında Azərbaycan Ordusunun döyüşlərdə qazandığı uğurlar bir daha sübut etdi ki, vahid dövlət və ordu quruculuğu sahəsində dövlətin apardığı siyasət əsaslandırılmış və ardıcıl olarsa, yüksək nailiyyətlər əldə etmək olar.

Ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə igidliklə vuruşmuş Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş polkovnik-leytenant Murad Mirzəyev, mayor Rasim İbrahimov, mayor Samid İmanov, gizir Mübariz İbrahimov, çavuş Etibar İsmayılov, əsgər Çingiz Qurbanov, "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuş əsgər Şamil Cəbrayılov və yüzlərlə digər Azərbaycan vətəndaşı döyüş meydanlarında əsl qəhrəmanlıq göstərmişlər.

Mayor Rasim İbrahimov Füzuli istiqamətində döyüşən taborlardan birinin komandiri idi. O, 1992-ci il iyunun 28-də döyüş zamanı bir neçə əsgəri ilə düşmən mühasirəsinə düşən döyüşçülərimiz sayca özlərindən dəfələrlə çox olan düşmənə qarşı son güllələrinədək vuruşaraq onlarla ermənini məhv etdilər. Bu qeyri-bərabər döyüşdə tək qaldığını görən ermənilər, Rasimin təslim olacağını güman etdikləri halda o isə "Azərbaycan zabiti əsir düşmür" sözləri ilə sonuncu qumbarasını partladaraq həm özü həlak olmuş, həm də bir neçə düşmən əsgərini məhv etmişdi.

Çavuş Etibar İsmayılov 1994-cü il yanvarın 4-də Xocavənd rayonunun "Nərgiztəpə" yüksəkliyi uğrunda gedən döyüşdə şəxsi igidlik göstərərək düşmən səngərinə birinci daxil oldu və əsgərlərimizin irəliləməsi üçün şərait yaratdı. Geri çəkilən düşmən yeni qüvvə toplayaraq tankların köməyi ilə əks-hücuma keçdi və döyüşçülərimizin mühasirəyə düşmək təhlükəsi yarandı. Düşmən tankının səngərə yaxınlaşdığını görən Etibar axırıncı tankəleyhinə qumbara ilə düşmən tankının altına atılaraq tankı məhv etməklə öz yoldaşlarını mühasirədən qurtardı.

Əsgər Şamil Cəbrayılov 1993-cü ilin axırında hərbi xidmətə çağırılmışdır. Qısa bir müddətdə öz silahından bacarıqla istifadə etməyi öyrənən Şamil dekabrın 13-də zirehli texnikanın dəstəyi ilə hücuma keçən düşmənlə döyüşdə soyuqqanlıqla ermənilərin 2 tankını məhv etmişdir.

19 iyun 2010-cu il tarixində gecə saat 23:30 radələrində gizir Mübariz İbrahimov təkbaşına bir kilometrlik minalanmış sahəni keçir. Ermənistan silahlı qüvvələrinin çox sayda əsgər və zabitini birinci həmlədə məhv edir. Sonra isə düşmənin öz silahlarını özünə qarşı istifadə edərək 5 saat onlarla təkbətək döyüşür. Düşməni ağır itkilərə məruz qoyur, onların zəif cinahlarını üzə çıxarır. Azərbaycan döyüşçüsü səhər saatlarında qeyri-bərabər döyüşdə qəhrəmancasına həlak olur.

Polkovnik-leytenant Murad Mirzəyev 2016-cı ildəki aprel döyüşlərində ermənilərin təxribatının qarşısının alınmasında misilsiz rəşadət göstərib. Vətənin cəsur, qeyrətli oğlu komandiri olduğu xüsusi təyinatlı qrupla birlikdə yüzlərlə ermənini Talış kəndi ətrafında məhv edərək, qeyri-bərabər döyüşdə tutduğu mövqeyi bir addım belə tərk etməyib. Aprelin 3-dən 4-ə keçən gecə ağır yaralanan polkovnik-leytenant M.Mirzəyev son gülləsinə və son damla qanına qədər düşmənlə mübarizə apararaq, qəhrəmancasına şəhid olub.

Mayor Samid İmanov 2016-cı ilin aprelin əvvəlində sonuncu dəfə döyüşə qatılıb. Azərbaycan-Ermənistan təmas xəttində 24 il fasilədən sonra başlayan amansız döyüşlərdə Samid İmanov Tərtər rayonunun Talış kəndi istiqamətində düşmənlə döyüşə girib. Aprelin 3-dən 4-nə ötən gecə döyüş zamanı mayor S.İmanov ayağından və çiynindən yaralanıb. Əsgərlər onu döyüş meydanından çıxartmaq istəsələr də, Samid İmanov bununla razılaşmayıb və onun əvəzinə yaralı gizirinin çıxarılmasını əmr edib. Əsgərlər giziri çıxardıqdan sonra yenidən döyüş meydanına qayıtsalar da erməni tərəfə əsir düşməmək üçün yerini dəyişən mayor Samid İmanovu tapmayıblar.

2016-cı il dekabrın 29-da Azərbaycan-Ermənistan dövlət sərhədində düşmən təxribatının qarşısını alarkən əsgər Qurbanov Çingiz Salman oğlu dörd erməni əsgərini öldürür və daha üçünü isə yaralayaraq qeyri-bərabər döyüşdə şəhid olur. Ancaq onun nəşi erməni tərəfdə qalır. Şəhid Çingiz Salman oğlu Qurbanovun nəşi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin bilavasitə göstərişinə əsasən dövlət qurumları tərəfindən beynəlxalq təşkilatlarla aparılmış müntəzəm və ardıcıl tədbirlər nəticəsində 39 gün sonra - 2017-ci il fevralın 5-də qarşı tərəfdən alınmışdır.

Vətən uğrunda döyüşlərdə belə qəhrəmanlıqlar göstərən zabit, gizir və əsgərlərimiz çoxdur. Onların qəhrəmanlıqları dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib və öz qəhrəmanlıqları ilə özlərini əbədiləşdiriblər. Ordumuz məhz həmin qəhrəmanlıq nümunələri əsasında formalaşır, qurulur, böyüyür, artıq bu gün Azərbaycanın dövlət müstəqilliyini, ölkəmizin hüdudlarını, ərazisini qoruya bilən qüdrətli bir orduya çevrilibdir.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ordu quruculuğu məsələlərini öz diqqət mərkəzində saxlayır və öz çıxışlarından birində demişdir: "Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır".

Bu gün səmərəli hərbi təhsil sistemi yaradılmış, hərbi kadr və mütəxəssislərin hazırlıq proqramları, hərbi təhsilin pillələri və onları həyata keçirən hərbi tədris müəssisələrinin fəaliyyət istiqamətləri müəyyən edilmişdir.

Hazırda təlim mərkəzlərində dünyanın ən qabaqcıl, müasir ordularının döyüş və mənəvi-psixoloji hazırlıq üsullarından istifadə edilir. Bu istiqamətdə bir çox böyük dövlətlərin Azərbaycanla hərbi əməkdaşlıq sahəsində imzaladığı müqavilələr xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Ordusu NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində təşkil olunan bütün tədbirlərdə, təlimlərdə fəal iştirak edərək, dünya dövlətlərinin ordu quruculuğu sahəsində qabaqcıl təcrübələrə yiyələnir.

Məhz 2016-cı ilin aprelində Ağdərə, Füzuli, Cəbrayıl istiqamətlərində və 2018-ci ilin mayında Naxçıvanda həyata keçirilən əks-həmlə əməliyyatlarında qazanılan uğurlar Ali Baş Komandanın diqqət və qayğısı ilə orduda həyata keçirilən kompleks islahatlar nəticəsində mümkün olub. Hər iki tarixi məqam Azərbaycan Ordusunun döyüş hazırlığı, ruh yüksəkliyi, mənəvi-psixoloji durumu və peşəkarlıq baxımından Ermənistan ordusundan qat-qat üstün olduğunu əyani şəkildə sübut etdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan dövlətinin yürütdüyü siyasətin məğzini, məqsədini çox aydın və dürüst şəkildə belə ifadə edib: "Biz bütün sahələrdə orduda gedən proseslərin inkişafına çalışırıq. Son illər ərzində maddi-texniki bazanın möhkəmləndirilməsində böyük işlər görülmüşdür, çoxlu texniki avadanlıq, müasir silahlar alınmışdır və beləliklə, Azərbaycan Ordusu xeyli dərəcədə güclənmişdir. Biz bu prosesi davam etdirəcəyik. Azərbaycan müharibə şəraitində yaşayır və belə olan halda ilk növbədə ordu quruculuğuna böyük diqqət göstərilməlidir".

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Əsgərə məktub*

# Vətənimiz sizə əmanətdir

Salam, əziz dost. İçimdə qəribə təlaş və sıxıntı var. Deyəsən, bu aralar havanın buludlu olması mənə də təsir edib. Düşünürəm ki, tək sıxıntılı olan mən deyiləm. Artıq sən də fərqindəsən böyüdüyünün. İllərdir valideynlərin sənə baxıb, əziyyətini çəkib, bəzən qara-qəhvəyi saçlarına sığal çəkib. Aldığın ən əhəmiyyətsiz yara, zərbə onların qəlblərinə təlaşın ən böyük möhrünü vurub. İllərdir onlar heç bir təmənna güdmədən yalnız sənin böyüyüb ali təhsilli və ya işinin əsl peşəkarı olmağını istəyiblər. Bəli, ali savadlı olmaq şərt deyil. Əsas şərt sənin ruhunun kamillik dərəcəsinə çatmasıdır. Qayğılardan uzaq idin. Tək qayğın sevdiyinin sənə qarşı etinasızlığı, və ya həyata keçirməyə çalışdığın məqsədlərin idi. Sənin ən böyük yolun daşlı-kəsəkli, məktəb yolu idi. Bu səni bir növ gələcək həyat məktəbinə hazırlamaq üçün həyatın özü tərəfindən qurulmuş oyun idi. Əvvəlcə bağça, məktəb, sonra kollec, universitet, əsgərlik. Həyat yolu, beləcə, davam edir. Xoş gəldin aramıza, dost. Bu gündən sən də qayğı çəkənlər və məsuliyyət daşıyanlar sırasına qatıldın.

Böyüdün... İllərdir ağızağız eşitdiyin əsgərlik həyatını indi sən özün yaşayacaqsan. Çox tələşlısan. Bir az da qorxunun tumurcuqlarını hiss etmək olar təlaşdan, rəngi solmuş çöhrəndən. Yeni həyatın başlanğıc qapıları açılır önündə. Bir il altı aylıq müddətdə ailən səksəkədə qalacaq. Hər yıxılanda yaranı öpən anan indi uzaqdan-uzağa dualı nəfəsi ilə qəlbini öpəcək. Forman bədəninə təmas etdikcə məsuliyyətin nə qədər ağır olduğunu hiss edəcəksən. Bir vaxtlar Mübarizlərin, Çingizlərin getdiyi yolun indi sən astanasındasan. Öyrəşdiyin yaşayış tərzindən bir az fərqli olacaq sənə. Tezdən oyanmaq, tez yatmaq, ağır məşqlər, nizamlı yemək saatı. Sənin Fəvvarələr Meydanın, Dəniz Kənarı parkın artıq səngərindir. Geyindiyin rahat ayaqqabını isti batinka əvəzləyəcək. Ən önəmlisi, hər canın sıxılanda sənə sevgi bəxş edən valideynlərin yanında olmayacaq. Həyatın sərt üzünü görüb, müharibəsiz və hər şey yolunda olan yaşayış tərzinin qədrini anlayacaqsan. Bəlkə də, səni təlaşlandıran bu müharibədə dostlarının yarım qalan həyatlarıdır. Ancaq unutma, onlar bir qəhrəman kimi vuruşub, öz müharibələrinin qalibi oldular. İndi sıra səndədir...




Tanış səs, tanış sima, tanış münasibət arayacaq gözlərin. Bəlkə də telefonda yaxınlarının səsini eşitmək sənə dünyanın ən böyük xəzinəsinə qovuşmuş kimi təsir bağışlayacaq. Səndən "Necəsən?" - deyə soruşduqlarında sən "Yaxşıyam.." - deyəcəksən. Amma ikimiz də bilirik ki, həmin an içində qaçqınların yurd həsrəti, atılmış körpələrin göz yaşlarına bərabər hiss yatır. Ancaq dik dayan. Vətənin sənin kimi mərd oğullara ehtiyacı var. İllər keçdikdən sonra yaşadığın bir il altı ay anlara çevriləcək. Yaşadığın ən mükəmməl və qeyri-adi təcrübə olacaq. Bu gün Vətənimiz sizə əmanətdir. Necə ki, atandan bu əmanəti qorumaq üçün aldın, gün gələcək sənin də övladına bu şərəfli məsuliyyət qismət olacaq. Unutma:

Əlimiz Quran üstdə,
candan öncə Vətəndir,
Son anda, son nəfəsdə
sinə ona sipərdir!..

Özünə yaxşı bax, Əsgər! Sən bizim fəxrimiz, istinadgahımızsan. Şəhidlərimizin qan qoxusu, qələbənin işartıları gələn torpaqlarımız sizə, siz isə Allaha əmanətsiniz!..

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun III kurs tələbəsi**

# Müddətdən artıq həqiqi hərbi xidmət keçmək istəyənlərin nəzərinə

*Azərbaycan Ordusunda müddətdən artıq həqiqi hərbi xidmətə könüllü daxil olmaq arzusunda olan, ən azı ümumi orta təhsilli, qanunla müəyyənləşdirilmiş müddətli həqiqi hərbi xidmətini başa vurmuş, 28 yaşınadək hərbi vəzifəlilər avqustun 1-dən 20-dək müvafiq sənədlərlə birliklərin, qoşun növlərinin və hərbi hissələrin qərargahlarında fəaliyyət göstərən qəbul komissiyalarına müraciət edə bilərlər.*

"Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar qəbul komissiyaları tərəfindən hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədi ilə Müdafiə Nazirliyinin tibb müəssisələrinə göndərilir. Hərbi Həkim Komissiyalarının qərarına əsasən hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılırlar.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq, liderlik və qərar qəbuletmə bacarıqları, həmçinin fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər kursa qəbul edilirlər.

Kursu müvəffəqiyyətlə başa vuran şəxslərlə 3 (üç) il müddətinə bağlaşma imzalanır və onlar ixtisasların uyğun müvafiq vəzifələrə təyin olunurlar.

Namizədlər qəbul komissiyalarına müraciət edərkən aşağıdakı sənədləri təqdim etməlidirlər:

- kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal, əlyazma ilə 1 nüsxədə, çap variantı 2 nüsxədə;
- xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;
- təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti - 2 nüsxədə;
- doğum haqqında şəhadətnamənin təsdiq edilmiş surəti - 2 nüsxədə;
- şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti - 2 nüsxədə;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda) - 2 nüsxədə;
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surətləri (uşaq olduqda) - 2 nüsxədə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış - 2 nüsxədə;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4,5x6 sm ölçüdə);
- qeydiyyatda olduğu poliklinikadan (dəri-zöhrəvi, vərəm, ruhi-əsəb, narkoloji və son 5 (beş) ildə infeksion xəstəliklərlə bağlı müraciət edib-etməməsi barədə) arayış;
- hərbi biletin bütün vərəqlərinin surəti (notarial qaydada təsdiq olunmuş) - 2 nüsxədə;
- məhkumluğun olmaması barədə qeydiyyatda olduğu rayon Polis İdarəsi (şöbə, bölmə) tərəfindən verilmiş arayış.

**Müraciət etmə yeri:** Birliklərin, qoşun növlərinin və hərbi hissələrin qərargahlarında fəaliyyət göstərən qəbul komissiyaları.

**Müraciət etmə vaxtı:** 2019-cu il avqustun 1-dən 20-dək, hər gün (bazar günləri istisna olmaqla) saat 09.00-dan 18.00-dək.

**Qeyd:** Müddətdən artıq həqiqi hərbi xidmətdən "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 156-cı maddəsinin "e" bəndinə (xidməti uyğunsuzluğa görə) müvafiq olaraq ehtiyata buraxılmış hərbi qulluqçuların və məhkumluğunun ödənilməsindən asılı olmayaraq məhkum olunmuş hərbi vəzifəlilərin kursa qəbul üçün müraciət etməmələri xahiş olunur.

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə istehsal olunan yeni döyüş texnikası ordunun sərəncamına verilib



Türkiyədə yeni istehsal olunan təkərli zirehli döyüş texnikası Silahlı Qüvvələrin sərəncamına verilib.

Yerli texnologiyalarla istehsal olan yeni döyüş texnikası silah və müasir müdafiə avadanlığı ilə təchiz olunub. Bundan başqa, yeni texnika hədəfləri dəqiq vurmaq və döyüş şəraitində yüksək sürətlə hərəkət etmək imkanına malikdir.

Türkiyə Silahlı Qüvvələrinin Quru Qoşunlarının arsenalına bu texnikadan birinci mərhələdə 20-sinin verilməsi nəzərdə tutulur. Zirehli maşını 9 nəfərlik heyət idarə edəcək.

## Əfqanıstanda baş verən partlayış nəticəsində 12 nəfər həlak olub



Əfqanıstanın Qəzni vilayətinin eyni adlı inzibati mərkəzində baş verən partlayış nəticəsində 12 nəfər həlak olub, 43 nəfər xəsarət alıb.

Bu barədə ölkənin Pacvok xəbər agentliyinin "Twitter"dəki səhifəsində məlumat verilib. Agentliyin məlumatına görə, hadisə Əfqanıstan Milli Təhlükəsizlik İdarəsinin vilayət bölməsinin binası qarşısında avtomobilin partladılması nəticəsində baş verib. Həlak olanların 8-nin təhlükəsizlik qüvvələrinin əməkdaşı, 4-nün isə mülki şəxslər olduğu bildirilib. Xəsarət alanların əksəriyyəti isə məktəblilərdir. Bölgədəki terrorçu qruplaşmalardan heç biri hələ ki, məsuliyyəti öz üzərinə götürməyib.

## Ərdoğan: ABŞ-ın Türkiyəyə F-35 təyyarələri satmaqdan imtina etməsi soyğunçuluqdur



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ-ın Türkiyəyə F-35 tipli beşinci nəsil qırıcı təyyarələrini çatdırmaqdan imtina etməsini soyğunçuluq adlandırıb.

"Əgər mütəmadi olaraq pul ödəyən müştəriniz varsa, onun istədiyi məhsulu verməkdən necə imtina edə bilərsiniz? Buna soyğun deyərlər. Biz indiyə qədər 1,4 milyard dollar pul ödəmişik. Hərbçilərimiz və təyyarəçilərimiz təlim keçib. Bizə dörd təyyarə təhvil verilib, digərləri isə qalıb", - deyə Rəcəb Tayyib Ərdoğan bildirib.

Xatırladaq ki, Birləşmiş Ştatlar Rusiya istehsalı olan S-400 "Triumf" zenit-raket komplekslərini alacağı təqdirdə Ankaranı beşinci nəsil F-35 qırıcı-bombardmançı təyyarələrinin çatdırılması proqramından tamamilə çıxarmaqla hədələyib.

Ankara ən azı 100 ədəd "F-35 Lightning II" təyyarəsi almaq niyyətindədir. Sövdələşmə ABŞ-ın himayəsi altında hazırlanan və Ankaranın 2002-ci ildə qoşulduğu proqram çərçivəsində həyata keçirilir.

## ABŞ Prezidenti UNO-lara münasibət bildirib



ABŞ Prezidenti Donald Tramp "Fox News" telekanalına müsahibəsində Uçan Naməlum Obyektlərə (UNO) münasibət bildirib. Tanınmış jurnalist Taker Karlsonun "Siz UNO-ların mövcud olmasına inanırsınız?" sualını cavablandıran Birləşmiş Ştatların dövlət başçısı deyib: "Əslində, mən bununla bağlı təfsilatı ilə danışmaq istəmirəm. Amma UNO-ların mövcud olmasına inanmıram. Özüm inanmasam da, düşünürəm ki, hər şey ola bilər".

Karlson Ağ evin sahibinə xatırladıb ki, ABŞ Hərbi Hava Qüvvələrinin pilotları uçuş zamanı səmada naməlum qəribə obyektlər görüblər. Donald Tramp bununla razılaşıb və bildirib ki, həqiqətən də bu obyektləri gördüklərinə and içən insanlar var. Prezident jurnalistin ABŞ Hərbi Hava Qüvvələrinin bazasında UNO parçalarının saxlanıldığı barədə digər sualına cavabında isə bildirib ki, onda bu cür məlumatlar yoxdur.

**AZƏRTAC-ın materialları əsasında**

*"Açıq qapı" gününün təəssüratları*

# Ordumuza inamımız böyükdür

*Vətənimizin, xalqımızın gələcəyini düşünən ümummilli liderimiz Heydər Əliyevin zamanı qabaqlayan parlaq siyasi zəkası və uzaqgörənliyi ilə söylədiyi "Vaxt gələcək Azərbaycan güclü silahlara, peşəkar zabitlərə, qısası, qüdrətli orduya sahib olacaq" fikri bu gün tam mənasıyla həyata keçib. Artıq ənənə halını alan "Açıq qapı" günündə iştirak edən hər kəs bunun canlı şahidi oldu.*



Hava isti, bürkülü olsa da, "N" hərbi hissəsində qələbəlik idi. Əsgər valideynlərinin və yaxınlarının üz-gözlərindən sevinc, razılıq ifadəsi hiss olunurdu. Çöhrələrə təbəssüm, ürəklərə rahatlıq verən görüşün təəssüratlarını öyrənmək üçün valideynlərlə söhbətləşdim.

Tovuz rayon sakini Fərman Hüseynov ilk olaraq Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevə, Müdafiə naziri general-polkovnik Zakir Həsənova dərin təşəkkürünü bildirdi. Övladı matros Səhman Hüseynovun Vətənə müqəddəs borcunu verməsiylə qürurlanan keçmiş hərbçi bildirdi ki, belə tədbirlər bəyənilən, çox təqdirəlayiq bir haldır. "Xalqla ordunun birliyi yenilməz gücdür, qüvvədir. Bu gün biz dövlətimizin əsgərinə yaratdığı şəraitlə tanış olarkən sevincdən ürəyimiz dağa döndü. Ordumuzda böyük islahatlar aparılıb. Bu gün bizim güclü, müasir texnikalarla təchiz edilmiş qüdrətli ordumuz var. Aprel hadisələri zamanı biz bunun şahidi olduq. Ordumuzun 100 illiyi ilə bağlı keçirilən hərbi parad düşmənlərimizlə bərabər bir çox dövlətlərin diqqət mərkəzində idi. İnanırıq ki, çox yaxın zamanda işğalda olan ərazilərimiz azad ediləcək, soydaşlarımız öz ata-baba yurdlarına qayıdacaqlar".

Bütün əsgərləri doğma övladı bilən Mahirə xanım da onların şəraitinin çox yüksək olmasından ağızdolusu danışdı. Yeməkxanada olub, mətbəxə baş çəkən ana burada müasir dövrün tələblərinə cavab verən avadanlıqların olmasından və milli xörəkləri qadın aşpazların hazırlamasından çox razı qalıb.

Əsgər anası övladı ilə birlikdə nahar süfrəsi arxasında əyləşib. Süfrədə çörək, mövsümi salat, təbii meyvə şirəsi, növbənöv xörəklər, meyvə, şirniyyat var. Əsgər anası xörəklərin dadına baxarkən üzündə razılıq yarandı. O bildirdi ki, xörək çox dadlı və ləzzətli hazırlanıb. "Sizi inandırıram ki, ev xörəyindən heç seçilmir. Bir evdar xanım kimi tam səmimiyyətimlə deyirəm, ev xörəyindən belə dadlıdır."

Təzəgül Əzizova Oğuz rayonundan qardaşı oğlu matros Ramil Əzizliyə baş çəkməyə gəlib. O hərbi hissə ilə tanışlıqdan, əsgərlərimizin belə bir şəraitdə qulluq etməsindən çox razı qaldığını bildirdi. Əsgərin bibisi dedi ki, sağ olsun möhtərəm Prezidentimiz İlham Əliyev. "Onun qayğısı nəticəsində ordumuz günü-gündən güclənir. Əsgərlərimizin şəraitinə baxanda adamın ürəyi açılır. Yataq yerlərini, hamam-camaşırxana və yeməkxananı gördüm. Hər tərəf təmiz və səliqəlidir. Mən bir əsgər yaxını olaraq Müdafiə nazirimiz general-polkovnik Zakir Həsənova da minnətdarlığımı bildirirəm".

Hər birimizin oğlunun, qardaşının, yaxınlarının orduda qulluq etdiyini düşünmək bizə qürur verir. Ordu hər bir müstəqil dövlət üçün vacib şərtdir. Bu gün burada gördüklərimizdən sonra deyərdim ki, qabaqcıl hərbi texnikası, əsgərinin mənəvi-psixoloji və döyüş hazırlığı güclü olan ordumuzun qarşısında düşmən tab gətirə bilməz. Ordumuzun inkişafı göz önündədir. Biz öz ordumuza inanırıq və övladlarımızı çox böyük güvən, inam hissi ilə hərbi xidmətə yola salırıq.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# Samson - məsafədən idarəolunan döyüş modulu





Məsafədən idarəolunan döyüş modulu Samson İsrailin "Rafael Advansed Defence System" şirkəti tərəfindən istehsal olunur. Samsonu müxtəlif kalibrli pulemyotların, 20-40 mm-lik artilleriya topunun, avtomat qumbaraatanların, TƏİR və müşahidə cihazlarının üzərində quraşdırmaq mümkündür. Ümumilikdə bu modulun digər 30 mm-lik variantı (RCWS30) da mövcuddur ki, yüngül zirehli texnikalarda və kəşfiyyat maşınlarında quraşdırmaq üçün nəzərdə tutulub. Əlavə olaraq modul "Spayk" idarəolunan raketə, tüstülü qumbaraatana və üçlü trenajora da malikdir. Heyətin əlavə olaraq mühafizəsi korpusdaxili təchizatla təmin edilir. Burada STANAG səviyyəsində mühafizə zirehi də yerləşdirmək olar. Onun texniki xüsusiyyətlərinə gəldikdə isə mühafizə zirehini çıxmaqla modulun ümumi döyüş çəkisi +1500 kiloqramdır. Samsonun əsas silahlanmasına 25 mm-lik M242 topu, 30 mm-lik Mk44 topu, 30 mm-lik 2A42 topu, eyni zamanda 7,62 mm-lik topu, avtomatik 40 mm-lik (AGL) qumbaraatan qurğusu, tank əleyhinə idarəolunan buraxıcı qurğu və tüstülü (SGL) qumbaraatanı daxildir. Qalxma bucağı - 200-dən +700-ə qədərdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan döyüşçüsü növbəti dəfə dünya çempionu olub




Antalyada döyüş növləri üzrə növbəti dünya çempionatı keçirilib.

Dünya və Avropa çempionu Vüqar Əzimov Azərbaycan yığma komandasının heyətində bu çempionatda da uğurla çıxış edib. On dörd ölkədən idmançıların qatıldığı mundialda 90 kiloqram çəki dərəcəsində çıxış edən Azərbaycan idmançısı V.Əzimov qızıl medal qazanıb. Təmsilçimiz Qazaxıstan, Rusiya və Özbəkistandan olan rəqibləri üzərində inamlı qələbə qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

## Cüdoçumuz Hidayət Heydərov XXX Ümumdünya Yay Universiadasında gümüş medala sahib olub



Azərbaycan cüdoçusu Hidayət Heydərov İtaliyanın Neapol şəhərində keçirilən XXX Ümumdünya Yay Universiadasında gümüş medala sahib olub.

Universiadanın ikinci günündə - iyulun 5-də Azərbaycanın iki cüdoçusu mübarizə aparıb. Milli komandamızın üzvü Hidayət Heydərov (73 kq) müxtəlif mərhələlərdə ardıcıllıqla Abdullah Hamad (Səudiyyə Ərəbistanı), Abdelrahman Mohamed (Misir), Luca Otmane (Fransa), Marko Qusiç (Monteneqro), Tsoqtbaatar Tsend-Oçiri (Monqolustan) məğlub edərək finala vəsiqə qazanıb. Həlledici görüşdə rusiyalı Evgeni Prokopçuka məğlub olan cüdoçumuz gümüş medalla kifayətlənməli olub.

## Azərbaycan idmançısı Qazaxıstanda keçirilən beynəlxalq turnirdə bürünc medal qazanıb



Qazaxıstanın Almatı şəhərində Qusman Kosanovun xatirəsinə həsr olunan atletika üzrə beynəlxalq xatirə turnirinə yekun vurulub.

Turnirdə atletimiz Sabrina Zralova üç təkanla tullanma yarışında bürünc medal qazanıb.

Beynəlxalq turnirdə Azərbaycan idmançılarından tullanma növlərində Yekaterina Sarıyeva, Yelena Pextereva, Sabrina Zralova, Yadulla İbrahimov, qaçış növündə isə Cavid Məmmədov mübarizə aparıblar.

## Azərbaycan karateçiləri Gənclər Liqası turnirində bürünc medal qazanıblar




Azərbaycan karateçiləri Xorvatiyanın Umaq şəhərində keçirilən Dünya Karate Federasiyasının (WKF) Gənclər Liqası turnirində daha bir medal qazanıblar.

12-18 yaşlı uşaq, yeniyetmə və gənc karateçilərin qatıldıqları turnirdə Sultan Hüseynov (16-17 yaşlı gənclər, 55 kq) fəxri kürsünün üçüncü pilləsində yer alıb.

Bununla da Gənclər Liqasında idmançılarımızın mükafatlarının sayı ikiyə çatıb. Belə ki, 14-15 yaşlı yeniyetmələrin yarışında Ramil Baxşəliyev (52 kq) də eyni nəticəni göstərmişdi.

**AZƏRTAC-ın materialları əsasında**

Nəcəfov Fərhad Əbdülsalam oğluna verilmiş muharibə veteranı və pensiya vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 524
Nüsxə 3950